# Xocalı soyqırımı, Xocalı harayı

## **Prezident İlham Əliyev:** Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər



**...Antuan Fukuanın rejissorluğu, dünyanın tanınmış kino ulduzları Brus Uilsin və Monika Belluçinin iştirakı ilə çəkilən "Günəşin göz yaşları" filminə baxdıqda Xocalı soyqırımını xatırlamamaq mümkün deyil. Nigeriyada baş verən hərbi çevriliş zamanı öldürülən dinc əhalinin taleyinə həsr olunmuş, bu filmdə insanın qanını damarlarında donduran hadisələri, kadrları izlədikcə erməni cəlladlarının soydaşlarımıza qarşı törətdikləri vəhşiliklər bütün dəhşətləri ilə göz önündə canlanır. ABŞ-ın istehsalı olan və 70 milyon dollara başa gələn filmdə cərəyan edən hadisələrlə Xocalıda törədilən soyqırımının süjet xətti eynidir: günahsız insanları qətlə yetirmək, daha çox qan tökmək. Fərqli olan isə Xocalıda qətlə yetirilənlərə kömək etmək üçün leytenant Uoters və həkim Lena, Fyori Kendriks kimi insanların olmamasıdır.**

Fərq bir də təcavüzkar Ermənistanın qaniçən prezidenti S.Sarkisyanın britaniyalı jurnalist-yazıçı Tomas de Vaala verdiyi müsahibəsindəki sözləri idi: "...Xocaluya (Xocalıya) qədər azərbaycanlılar elə düşünürdülər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyəcək adamlardır. Bütün bu təsəvvürləri dəyişmək lazım idi. Belə də oldu..."

Amma Sarkisyan səhv edir. Zaman hələ son sözünü söyləməyib. Azərbaycanlılar ermənilərin vəhşiliklərini təkcə Xocalıda deyil, 1905-1907, 1918-ci illərdə, soydaşlarımızın Qərbi Azərbaycandan deportasiya edildiyi dövrlərdə görüb, 1988-ci ildə daşnakların nə qədər qəddar olduqlarını Xocalı soyqırımında, Azərbaycana siyasi təcavüz olan 20 Yanvar hadisələrində bir daha şahidi oldular.

...Bəşər sivilizasiyasında insanların kütləvi qətliamı ilə tarixə yazılan faciələr çox olub. Xatın, Xirosima, Naqasaki, Ruanda, Uqanda, Nigeriya... Son dövrlərdə bəzi dövlətlərin maddi maraqlarının qurbanına çevrilən Şərq ölkələrində baş verənlər, miqrant problemləri də siyahıya əlavə olunsa qanunları ədalətə deyil, güc amilinə əsaslanan dünyamızda insanların qarşılaşdığı çətinliklərin verdiyi fəsadların dözülməzliyini təsəvvür etmək çətin deyil. Mahiyyət etibarilə insanların faciələri ilə nəticələnən hadisələrdən Xocalı soyqırımını xarakter etibari və günahsız insanlara qarşı törədilən vəhşiliyi fərqləndirən isə ermənilərin genlərindən irəli gələn qəddarlıqları, qaniçənlikləri, şovinistlikləri, terroru dövlət səviyyəsində dəstəkləmələridir. Bütün hallarda siyasət meydanında insanların faciəsi, qətliamı ilə nəticələnən, eyni mənbədən idarə olunan ssenarilərə əsasən oynanılan oyunun pərdəarxası mənzərəsini "klassik" metodlar təşkil edir: güclülərin zəiflər üzərində üstünlüyünə nail olması naminə həlqə kimi seçilən və emosiyaları qarşısıalınmaz həddə çatdıran millətlərarası ziddiyyətlərin qızışdırılması.

Dağlıq Qarabağ probleminin yaranmasına səbəb superdövlətlərin geosiyasi əhəmiyyətə malik ərazilərdə daha çox söz sahibi olmaq mübarizəsində birincilik qazanmaq iddiası idi. Belə çirkin niyyətlərin gündəmə gətirilməsi ideyası yarananda ilk növbədə ermənilərin başqa millətlərlə daha sıx yaşadığı, təmasda olduğu bölgələr nəzərdə tutulurdu.

Erməni ideoloqları Aqanbekyan, Silva Kaputikyan, Zori Balayan kimi daşnak tör-töküntülərinin icraçılar kimi nəzərdə tutulması hadisələri tezləşdirdiyi kimi, ünvanlar da bəlli oldu. Dağlıq Qarabağ münaqişəsi demək olar ki, imperiyanın süqutu üçün ən zəif həlqə kimi müəyyənləşdirildi. Ermənilərin istəklərini gerçəkləşdirmək üçün ilk növbədə səbəb axtaran imperiya başbilənləri əlaltıları ermənilərə sərf edən " çarələri tapdılar."

...27-28 fevral 1988-ci ildə Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün Kremlin, SSRİ DTK-nın xeyir-duasını alan ermənilərin ssenarisi əsasında Azərbaycanın ikinci sənaye şəhəri olan Sumqayıtda əvvəlcədən hazırlanmış plana uyğun təxribat törədildi. Bu hadisələrdə Azərbaycana maddi, mənəvi zərər vurulsa da , təxribat törədən dəstələr ermənilərdən ibarət olsa da cəzalanan yenə də azərbaycanlılar oldu. Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün məkrliklə işlənilən bu ssenarinin qanlı səhifələri 20 Yanvar hadisələri və Xocalı soyqırımı oldu.

Azərbaycanlıların qonaqpərvərliyindən istifadə edərək illərdən bəri arzusunda olduqları "Dənizdən-dənizə" ideyasını həyata keçirmək üçün ölkəmiz əleyhinə hərtərəfli təxribatlara başlayan ermənilərin Dağlıq Qarabağda, Qərbi Azərbaycanda- Vardenisdə, Qukarkda, Qacaranda, Qafanda, Gorusda, Alaverdidə törətdikləri qanlı aksiyalar zamanı 250 mindən artıq soydaşımız tarixi torpaqlarımızdan, doğma yurdlarından çıxarıldı.

20 yanvar 1990-cı ildə Azərbaycanın demokratiya və milli müstəqillik uğrunda mübarizəsini silah gücü ilə yatırmaq istəyən imperiya ənənəvi vərdişlərini təkrarlayanda erməni xəyanətindən istifadə etdiyi kimi, ermənilər də yaranan imkandan bacarıqla istifadə etdilər. Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ, ona yaxın ərazidə yerləşən 7 rayon Ermənistan və havadarlarının yardımı ilə işğal edildi. Bir milyondan artıq soydaşımız evlərindən didərgin, qaçqın düşdü. Hadisələr zamanı minlərlə soydaşımız qətlə yetirildi, 10 minlərlə günahsız azərbaycanlı şikəst oldu, yaralandı. İnsanlara və dövlətə xeyli maddi-mənəvi zərər vuruldu.

Zaman keçdikcə, tarixlər, hadisələr araşdırıldıqca bəlli oldu ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımı təkcə Xocalı ilə bitmir. Xocalı da daxil olmaqla əgər söhbət bir xalqın, millətin soyqırımından gedirsə ötən əsrdə dəfələrlə təkrar olunan qətliamlar, Əsgəranda, Ağdamda, Sumqayıtda...Dağlıq Qarabağ münaqişəsi başlanandan erməni vəhşiliyinin qanlı izləri duyulan vəhşiliklərin qurbanı olan bütün soydaşlarımızın xatirəsi eyni dərəcədə ehtiramla yad olunmalı, dünya ictimaiyyəti hadisələrə siyasi-hüquqi qiymət verməli, Ermənistanın təcavüzkar siyasəti pislənilməlidir.

Xocalı soyqırımını tanıyan Pakistan, Kolumbiya, Meksika və digər ölkələrdə də ictimaiyyətə çatdırılır ki, 25-26 fevral 1992-ci ildə yer üzündən silinən bu şəhərin 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri ahıl olmaqla 613 sakini qətlə yetirilmiş, 487 nəfər şikəst olunmuş, 1275 nəfər ermənilər tərəfindən əsir götürülmüş, təhqirlərə məruz qalmışdır. Onların 150 nəfərinin taleyi barədə bu günədək xəbər yoxdur. 24 uşaq hər iki valideynini itirmiş, 130 körpə isə bir valideynindən məhrum olmuşdur. Soyqırım qurbanlarından 56 nəfəri amansız vəhşiliklə qətlə yetirilmişlər.

...Sovetlərin 366-cı alayının, həmin hərbi hissədə toplanan erməni zabitləri və xarici ölkələrdən gətirilmiş muzdlu dəstələrinin iştirakı ilə törədilən Xocalı qətliamı insanlığa, bütünlükdə bəşəriyyətə qarşı cinayət idi. Xarici jurnalistlərin də etiraf etdikləri kimi, hələ də can verməkdə olan yaralılara qarşı amansızlıq, insanların diri-diri tonqala atılaraq yandırılması, körpələrin süngüyə keçirilməsi yalnız ermənilərə məxsus qəddarlıq olmaqla dözülməz və inanılmaz vəhşiliklərdən xəbər verirdi. "Biz yolu azərbaycanlıların meyitləri üzərindən keçirdik. Onların arasında ölməkdə olan yaralılar da var idi" kimi sözlərlə müşahidə etdiyi qətliamı qələmə alan xarici jurnalist erməni tərcüməçinin etinasızlıqla "Bura cəbhədir. Belə şeylərin fərqinə varma" sözlərini də insanlığa yaraşmayan hal kimi nifrətlə xatırlayır.

Ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsi zamanı erməni silahlılarının ərazimizdə apardıqları hərbi əməliyyatlar nəticəsində 20 min soydaşımız məhz azərbaycanlı olduğu üçün qətlə yetirilmiş, bir o qədər həmvətənimiz yaralanmış, 4 mini əsir düşmüş, minlərlə təhsil, səhiyyə, mədəniyyət müəssisəsi, tarixi abidələr dağıdılmışdır.

26 mart 1998-ci ildə ermənilərin azərbaycanlılara qarşı yönəlmiş soyqırımlarına ilk siyasi qiyməti (1918-ci il mart hadisələrinin 80-ci ildönümü ərəfəsində) imzaladığı fərmanla verən ümummilli lider Heydər Əliyev daha bir tarixi missiyanı yerinə yetirdi, erməni şovinizminin qanlı səhifələrini açıqladı.

Beynəlxalq hüquqa görə qatı cinayət hesab olunan, sülh və bəşəri dəyərlərə zərbə olan soyqırımlar, terror, işğalçılıq Ermənistanın dövlət siyasətinin əsasını təşkil edir. Artıq təsdiqlənmiş faktdır ki, Xocalı soyqırımı da daxil olmaqla erməni millətçilərinin Azərbaycana qarşı yönəltdiyi, 2 əsrdən artıq davam etdirilən işğalçılıq əməllərinin bir adı var: Əsasını etnik təmizləmə, deportasiya, insanlığa qarşı bəşəri cinayət adlandırılan SOYQIRIMI!

Prezident İlham Əliyevin səyi, Azərbaycanın artan nüfuzu, uğurlu diplomatiyası sayəsində dünya ictimaiyyəti başa düşür ki, Ermənistanın idarə olunan siyasətinin əsasında terrorçuluq və işğalçılıq siyasəti dayanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan ideoloji təbliğatın əsas prioritetləri Dağlıq Qarabağ haqqında həqiqətləri, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaqdır.

57 ölkənin gənclər təşkilatlarını birləşdirən İƏT-in Gənclər Forumu İdarə Heyətinin sessiyasında qurumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə Baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış, dünya birliyi tərəfindən dəstəklənən "Xocalıya ədalət" kampaniyasını genişləndirməkdə də məqsəd ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır.

Ötən illərdə İstanbulun Taksim meydanında Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş aksiyalarda 1 milyondan artıq insanın iştirakı Azərbaycanla həmrəylik nümunəsi olmaqla insanlığa qarşı törədilən bütün qətliamların pislənilməsi demək idi. Hər ilin fevral ayında Avropanın bütün şəhərlərində Xocalı qurbanlarının xatirəsi hörmət və ehtiramla yad edilir. Azərbaycan xalqı inanır ki, Ağ Evin rəsmiləri tərəfindən tələbimizə ehtiramla yanaşılacaq. Müasir dövrdə təbliğat üçün ən səmərəli mexanizm kimi veb saytların imkanlarından istifadə olundu.

Prezident İlham Əliyevin Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması istiqamətində davam etdirdiyi təbliğata dəstək olan bu kimi kampaniyalarda xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ümumxalq faciəsinin tanıdılması coğrafiyasını genişləndirir.

"Nə üçün Ermənistanın indiki rəhbərlərinə qarşı- hansılar ki, bilavasitə Xocalı soyqırımında iştirak etmişlər, əlləri Azərbaycan xalqının qanına batmışdır,- beynəlxalq tribunal təşkil olunmur, nə üçün onlar qınaq obyektinə çevrilmirlər" söyləyən Prezident İlham Əliyevin xalqın iradəsini əks etdirən bu sözləri bir daha əminlik yaradır ki, zamanın öz hökmünü verəcəyi an uzaqda deyil: "Təəssüflər olsun ki, bu günə kimi Ermənistan bu hərbi cinayəti törətdiyini etiraf etməyib. Onlar heç üzr də istəməyiblər. Onlar Xocalıda törətdikləri ilə bağlı beynəlxalq ictimai rəyi səhv istiqamətə yönəltmək istəyirlər."

"Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti" adlı yazısında "Avropanın Xocalıda törədilmiş soyqırımına münasibəti Qərbin ikili standartlar siyasətinin daha bir nümunəsidir" yazan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev 1992-ci il fevralın 26-na keçən gecə Ermənistanın indiki prezidenti Serj Sarkisyanın və müdafiə naziri Seyran Ohanyanın bilavasitə rəhbərliyi ilə erməni ordusunun hərbi bölmələrinin dinc Xocalı şəhərinə irimiqyaslı hücumunu insanlığa qarşı törədilmiş ən ağır və qanlı cinayət adlandırır.

Qərb erməni millətçilərinin üzərində həmişəlik ləkə kimi qalan bu dəhşətli cinayətə hələ məhəl qoymasa da, Xocalı faciəsi kütləvi qırğın, soyqırımıdır.

"Yalnız bir müqayisə aparmaq olar. 2015-ci ilin aprel ayında Avropa Parlamenti qondarma "erməni soyqırımı"nı tanıdı. Lakin bunun müqabilində radikal ermənilər tərəfindən Xocalıda törədilmiş soyqırımını pisləmədi" söyləyən akademik haqlı olaraq bildirir ki, əslində yüz il bundan əvvəl baş vermiş hadisələr tarixçilər tərəfindən araşdırılmalıdır: "Xocalı hadisələri isə nisbətən yaxın vaxtlarda, dünyanın gözü qabağında baş verib, amma Avropa Parlamentində bu dəhşətli faktı israrla görməzliyə vururlar. Əksinə, deputat korpusunun bir hissəsi hər cür vasitələrdən istifadə etməklə Azərbaycana böhtan atmağa çalışır, Bakının obyektiv gözləntilərinin ziyanına olaraq Ermənistanı müdafiə edir. Bu da təsadüfi deyil. Millətçi və separatçı erməniləri təmizə çıxarmaq və cəzalandırılmaqdan qorumaq üçün onların cinayətkar əməlləri barədə susmaq "prinsipial" Avropa parlamentarilərinin permanent hədəfidir."

Son dövrlərdə fəaliyyətini ikili standartlara uyğun formalaşdıran qərəzli təşkilatların Azərbaycana münasibətindən də aydın olur ki, Avropa strukturlarına sərf edəndə ən incə usullara əl atır, amma məsələ onların mənafelərinə toxunanda ictimai qüvvələrin diqqət və etimadı ilə manipulyasiya edərək protokol xarakterli bəyanatlarla kifayətlənirlər. Bu halda ədalət mühakiməsi quranların hiyləgərliyi insanı mat qoyur. Amma zaman gələcək sarkisyanlar, ermənilərin havadarları ştrasserlər, smitlər azərbaycanlı şəhidlərin ruhları, ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***